## Könüllü vergi açıqlaması



*Könüllü vergi açıqlaması sisteminin tətbiqi məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla Vergi Məcəlləsinə 13.2.49-2-ci, 72.5-1-ci və 72.5-2-ci maddələr əlavə edilmişdir.*

***Könüllü vergi açıqlaması dedikdə*** səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməyən və vergi öhdəliyinin yaranmasına səbəb olan halların vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü olaraq bəyan edilməsi nəzərdə tutulur.

Məlum olduğu kimi, vergi ödəyicilərində aparılan səyyar vergi yoxlamalarının başa çatmasına baxmayaraq vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda növbədənkənar vergi yoxlaması keçirilə bilər. Bu zaman keçirilən vergi yoxlaması ilə büdcədən yayındırılmış vergi məbləğləri dövlət büdcəsinə bərpa edilməklə, həmin yayındırılmış məbləğə ***50 faiz miqdarında*** maliyyə sanksiyası tətbiq edilir.

Dəyişikliyə qədər qüvvədə olan qanunvericilikdə vergi ödəyicisi tərəfindən dəqiqləşdiirilmiş vergi bəyannaməsinin səyyar vergi yoxlaması başladığı günədək vergi orqanına təqdim edə bilməsi nəzərdə tutulmuşdur. Lakin yeni dəyişiklik vergi ödəyicilərinə həm də imkan verir ki, səyyar vergi yoxlaması zamanı vergi orqanı tərəfindən aşkar edilməyən və əlavə vergi hesablanmasına səbəb olacaq halları könüllü şəkildə bəyan etsin və səyyar vergi yoxlamasının aparıldığı dövrə görə ***dəqiqləşdirilmiş bəyannamə təqdim etsin.*** Təqdim edilmiş həmin bəyannamə üzrə yalnız könüllü açıqlanmış vergi məbləği büdcəyə ödənilir, həmin məbləğə ***faiz hesablanmır və maliyyə sanksiyası tətbiq edilmir.***